


# AYB-də təqdimat keçirilib

Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda "Bayraq hekayələr toplusu"nun təqdimatı keçirilib. 248 səhifəlik kitab "Bayraq günü" münasibətilə tərtib olunub.

Topluya 22 müəllifin hər birinin bir hekayəsi daxil edilib.

Tədbirdə çıxış edənlər əsasən, məzmun müxtəlifliyi ilə seçilən hekayələrdə şanlı Azərbaycan ordusunun döyüş əzmkarlığı, əsgər-döyüşçü cəsurluğu, vətəndaşlarda yüksək səviyyəli qələbə ruhu, insan mübarizliyi və s. vətənpərvərlik prinsiplərinin tərənnüm edildiyini vurğulayıblar.

Kitabın tərtibatçısı Azərbaycan Yazıçılar Birliyinin üzvü, "Xəzan" ədəbi-bədii jurnalın baş redaktoru Əli bəy Azəridir. AYB katibi Elçin Hüseynbəyli tədbirdə iştirak etmişdir.

Sonda "Toplu"ya hekayələri daxil olunmuş müəlliflər "İsa Muğanna" fəxri diplomu ilə mükafatlandırılmışlar.

**Ədəbiyyat qəzeti.- 2022- ci il.- 19 noyabr.- S. 32.**